Ədəbiyyat QƏZETİ

Ayişə Nəbi



## Səssizlik qülləsi

Yaşamın  nöqtəsi,
Bəlkə nidası deməli?
Uzun, upuzun
Yerlə göyü birləşdirən
Son nəfəs qədər uzun,
dərin.
Uzun, arpa boyu uzun
arpa boyu bitməyən bu yolun
Qoyub ağırlıqlarımı  yerdə
Çıxıram.
Səssizlik qülləsinə  çıxıram,
Burda bütün  gözəlliklər ölü,
Bütün ölülər gözəldi.
Ölülər susur,
Susur və gözəlləşir.
Səssizlik qülləsinin kor quyusuna atıram
səsimi.
Enişi yoxdur
Çıxışdır.
Səssizlik qülləsinin pillələri
Bir tərəflidir.

## Dirilik

Qaf dağının Ankayı sevdiyi kimi,
Dirilik suyunu aradığı kimi İskəndərin,
Dəmirə and içən
Dağların anası Qaf dağı,
Tuğrulun caynağından qurtulan qaz kimi
Diridir
Mübarək Ötükəndə Orhunun ruhu.

Əskəra dağının təpəsini oxla dağıdan
Alpamışın qılıncı
Turan göylərindən süzərək
Yatan köksümə sancılır.
Yuxu haram
Zümrüd Qaf dağının qızarmaqdaykən göyləri.
Yuxu qara qasırğa kimi almış
Dan üzünü,
Dan üzünün ağartısını.

Dəmirə içilən and kimi
Dağların ruhu kimi yenilməzdir.
Bərq vurur dilində,
Alt-üst olur rəngləri
Yerlə göyün.

Həm itirən, həm bitirən torpaq
Səbrini basıb iz salmır üstündən.
Naxış gözləyir
Ötükəndən çapan atların altın nalından

## Ağrı dağı

Varsın da uçulsun,
Piltim-piltim olsun.
Kölgəmin düşmədiyi Ağrı dağı.

Cənnətdən qovulan Adəm
Binə tapmasın dağ adına
Yükləndiyi günahları qaytarsın geri.

Orhundakı h kimi
Dikəlib hara gedir?
Aparır kölgəsini
ətəyini sancıb belinə.

Ağrıların yara-yara,
Qan qarışar dumanlara.
Cildin qara,  donun qara,
Var paralan Ağrı dağı.

Adın yetmir ucalığına,
Nuhun, Adəmin sığınağı.
İndi kölgən kimə düşür,
Var kölgəni yığ yerlərdən.

Bir nərə çək göy genəlsin başımdan,
Anasından cihad əmsin körpələr.
Torpağın altında çürüməyənlər
Qalxıb ordu qursun bayrağın altda.

***

Göylərdə əngin səhra,
Qat-qat yollar, müntəha,
Sonunda ağ mavera
Laməkanam, laməkan.

Tubanın yarpaqları
Xışıldar axşam-səhər,
Günün şəfəqlərilə
Başıma səpələnər.

Laməkanam, divarlar
Durmaz, çökər önümdə.
Gül ətri şahidimdir
Məhşərdə din günümdə.

***

Mən geyb olmuş səsimlə
İkiqat səcdədəyəm.
Ağrı-acı bilmirəm
Ənəlhəqdə vəcddəyəm.

Günah, savab qalıbdır
zamanın o üzündə.
Gəldim haqq qapısına
Bir yarpağın içində.

Əncirin və zeytunun
And içərək adına
Çıxaraq sayılardan
Vardım zikrin dadına.